YEKUN

# TA-9106 AZE: AZƏRBAYCANDA HASİLAT SƏNAYESİNDƏ BENEFİSİAR SAHİBLİK MƏLUMATLARININ AÇIQLANMASINA DAİR YOL XƏRİTƏSİNİN TƏTBİQİNƏ DƏSTƏK (49451-001)

**1 saylı Hesabat: İLKİN HESABAT**

**AZƏRBAYCAN DÖVLƏT NEFT FONDU**
**(TƏTBİQ EDƏN AGENTLİK)**

**üçün tərtib olunub.**

**AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ**
**(İCRAÇI AGENTLİK)**

**yanında.**

**tərəfindən tərtib olunub.**

**20 avqust 2018-ci il**

## Mündəricat

Xülasə ... 3
Terminlər, qısaltmalar və abreviaturalar lüğəti ... 5
1. Giriş ... 6
2. İlkin Missiyanın Əsas Nəticələri ... 8
3. Məqsədlər ... 9
4. Əhatə dairəsi ... 10
5. Metodologiya ... 11
   a. Kameral Araşdırma ... 11
   b. Azərbaycan Qanunvericiliyinin Təhlili ... 12
   c. Maraqlı Tərəflərin Cəlb Edilməsi ... 13
   d. Məsləhətləşmə Sessiyaları ... 15
6. Nəticələr və Vaxt Cədvəli ... 17
7. Məhdudiyyətlər ... 19
1 saylı Əlavə: Benfisiar Sahiblik Məlumatlarının Açıqlanmasına Dair Yol Xəritəsinin İcrasını Dəstəkləmək Üçün Texniki Tapşırıq Və Məsləhətçilərin Kvalifikasiyası ... 20
2 saylı Əlavə: Məsləhətçi heyət ... 28
3 saylı Əlavə: 28 iyun 2018-ci il tarixli Azərbaycanda Hasilat Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına Dair Yol Xəritəsinin Tətbiqinə Dəstək Üçün Sual-Cavab Cədvəli Layihəsi ... 31
4 saylı Əlavə: Aylıq İrəliləmə Hesabatı Nümunəsi ... 33

# Xülasə

### Giriş

1. "BDO Azərbaycan" MMC (BDO), "Engaged Consulting Limited, Birləşmiş Krallıq" və "Michael Barron Consulting Ltd, Birləşmiş Krallıq" (bundan sonra birlikdə "Məsləhətçilər") [1] Azərbaycanda Benefisiar Sahibliyin Açıqlanmasına dair Yol Xəritəsinin tətbiqinə (BSYX) dəstək layihəsi üzrə bu İlkin Hesabatı təqdim etməkdən məmnuniyyət duyur.[2]

2. Asiya İnkişaf Bankı (AİB) Azərbaycanın Maliyyə Nazirliyi (MN) yanında Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) müraciətinə müvafiq olaraq ölkənin hasilat sənayesində daha irəli şəffaflıq tədbirlərinin görülməsi məqsədilə layihəni maliyyələşdirir. AİB rəqabətli tender prosesindən sonra BSYX-nin tətbiqi layihəsini icra etmək üçün BDO Azərbaycan rəhbərliyində məsləhətçilər konsorsiumu seçdi.

3. Bu hesabat məsləhətçilərin 15 may 2018-ci il tarixli yenilənmiş Texniki Tapşırıqlara (TT) (28 iyun 2018-ci ildəki dəyişikliklərlə) (3 saylı Əlavə)[3] və AİB və ARDNF ilə 25-28 iyun 2018-ci il tarixlərində baş tutmuş görüşlərə uyğun olaraq layihəni necə icra edəcəkləri barədə təfərrüatları əhatə edir. Bu hesabat layihənin məqsədlərini, əhatə dairəsini, metodologiyasını, heyət üzvlərini, cədvəli, nəticələrini müəyyən edir və layihəyə bəzi məhdudiyyətləri vurğulayır.

### İlkin Missiyanın Əsas Nəticələri

4. İlkin Missiya zamanı Məsləhətçilər dövləti, biznesləri və sivil cəmiyyət təşkilatlarını, o cümlədən AİB və digər inkişaf banklarını təmsil edən müxtəlif maraqlı tərəflərlə görüşdü.

5. Qeyd olunan əsas məsələlər tətbiq edilmə zamanı çətinliklərin olacağını nəzərə almaqla Azərbaycanın BSYX-nin tətbiqinə davam etməsinə güclü dəstək verilməsi idi. Əldə edilmək istənən şəffaflığın həddi ilə əlaqədar realistik olmaq lazımdır.

### BSYX-nin Tətbiq olunması Tapşırığı

6. Bu tapşırığın əsas hədəfi Texniki Tapşırığa əsasən Azərbaycanın Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyasının (HSŞK) Benefisiar Sahibliyin Açıqlanmasına dair Yol Xəritəsinin tətbiqinə dəstək olmaqdır.

7. Layihə hasilat sənayesinə fokuslanacaq və ən azından neft, qaz və digər mineralların kəşfiyyat, inkişafı, hasilatı, saxlanması, nəqli və ixracı

---

[1] Birlikdə beynəlxalq baş hasilat sənayesi şəffaflıq mütəxəssisi/heyət rəhbəri rollarını ifa edən "Engaged Consulting Limited, Birləşmiş Krallıq"-dan (ECL) cənab Tim Law və "Michael Barron Consulting Ltd, Birləşmiş Krallıq"-dan (MBC) cənab Michael Barron və (ii) MBC tərəfindən subkontrakt ilə beynəlxalq hüquq məsləhətçisi rolunu ifa edən cənab Julian Hicks ilə birlikdə BDO-dan cənablar Sabit Abdullayev və Yunis Salayev müvafiq olaraq milli hüquq məsləhətçisi/hasilat sənayesi şəffaflıq mütəxəssisi və milli maliyyə və əməliyyat mütəxəssisi rollarını ifa edirlər.

[2] https://eiti.org/sites/default/files/documents/beneficial_ownership_roadmap_-_azerbaijan.pdf

[3] 1 saylı Cədvəl (Texniki Yardımın İcrası Qrafiki və Hesabat Tələbləri) müvafiq olaraq 31 oktyabr 2018 və 31 may 2019-30senyabr 2018 və 15 aprel 2019-cu il tarixlərində başa çatması planlanan III və VI Hesabatlara uyğun olaraq dəyişdirilib.

("upstream" və "midstream") ilə məşğul olan şirkətləri, o cümlədən bu fəaliyyətlərə investisiya qoyan və ya mühəndislik, təchizat və tikinti (MTT), əməliyyat və xidmət (ƏX) və ya digər uzunmüddətli xidmət müqaviləsinə girən şirkətləri əhatə edəcək.[4]

8. Layihənin təqdim edilməsi qabaqcıl beynəlxalq təcrübənin kameral araşdırmasına, Azərbaycan qanunvericiliyinin dəyərləndirilməsinə, maraqlı tərəflərlə əlaqələrə, o cümlədən iki məsləhətləşmə/təsdiqləmə sessiyalarına əsaslanacaq: birincisi 2018-ci il, noyabr ayının ilk yarısında benefisiar sahiblik tərifi haqqında və ikincisi 2019-cu ilin ortalarında qanunvericilik layihəsi barədə.

9. Məsləhətçilər dövlətdən, hasilat sənayesi şirkətlərindən, beynəlxalq maliyyə institutlarından və sivil cəmiyyət təşkilatlarından müxtəlif maraqlı tərəflərlə münasibət quracaq. Onlar həmçinin bənzər benefisiar sahiblik rejimlərini inkişaf və ya tətbiq edən ölkələrdə hökumətlər, qərar qəbul edən orqanlar və müvafiq orqanlarla da əlaqə quracaqlar.

10. Layihə bir neçə variant təqdim edəcək və maraqlı tərəfləri bu məsələlərlə bağlı razılaşdırılmış pozisiyaya tərəf istiqamətləndirəcək: (i) qabaqcıl beynəlxalq təcrübəyə uyğun benefisiar sahiblik tərifi; (ii) məlumatların yığımı və mütəmadi yenilənməsi, təsdiqi, hesabatı, girişi və istifadəsi üçün razılaşdırılmış mexanizmlər; (iii) tətbiq və icra edilməsi üçün qanunvericilik layihəsi. Bu müvafiq maraqlı tərəflərin təşəbbüs barədə lazımınca məlumatlı olması üçün maarifləndirici vasitələrlə dəstəklənəcək.

11. Layihə 1 iyun 2018-ci ildə başlayıb və 31 oktyabr 2019-cu ildə başa çatması gözlənilir. Bu müddət ərzində Məsləhətçilər bu İlkin Hesabatla yanaşı səkkiz hesabat təqdim edəcək. 3 və 6-cı hesabatlar məsləhətləşmə üçün müddəti maksimum şəkildə artırmaq məqsədilə TT-də qeyd olunan son tarixdən əvvəl təqdim olunacaq.

12. İlkin Missiyanın bir hissəsi olaraq, Məsləhətçilər bu layihəyə potensial məhdudiyyətləri nəzərə aldılar. Bunlara maraqlı tərəflərin benefisiar sahibliyə və onun xeyirlərinə məhdud anlayışının olması, həmçinin məsləhətləşmələrə cavabların vaxtında verilməməsi, əlaqəli maraqlı tərəflərin birbaşa lobbiçiliyi daxildir.

[4] BSYX-nın qeydiyyat tələbləri aid ediləcək şirkətlərin sayından asılı olaraq electron qeydiyyat həlli yolu istifadə oluna bilər.

## Terminlər, qısaltmalar və abreviaturalar lüğəti

| | |
|---|---|
| AB | Avropa Birliyi |
| AİB | Asiya İnkişaf Bankı |
| ARDNF | Azərbaycan Dövlət Neft Fondu |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BS | Benefisiar Sahiblik |
| BSYX | Benefisiar Sahibliyin Açıqlanmasına dair Yol Xəritəsi |
| BVF | Beynəlxalq Valyuta Fondu |
| ÇTQ | Çoxtərəfli Qrup |
| DYT | Dürüstlük Yoxlanılması Tələbləri |
| ƏX | Əməliyyat və Xidmət |
| HSŞK | Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya |
| İƏİT | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| MFVQ | Maliyyə Fəaliyyəti Vəzifə Qrupu |
| MT | Müştərini Tanı |
| MTT | Mühəndislik, Təchizat və Tikinti |
| SNS | Siyasi Nüfuz Sahibləri |
| TT | Texniki Tapşırıq |

# 1. Giriş

1.1. "BDO Azərbaycan" MMC, "Engaged Consulting Limited, Birləşmiş Krallıq" and "Michael Barron Consulting Ltd, Birləşmiş Krallıq" (bundan sonra birlikdə "Məsləhətçilər") Azərbaycanda Benefisiar Sahibliyin Açıqlanmasına dair Yol Xəritəsinin tətbiqinə (BSYX) dəstək layihəsi üzrə bu İlkin Hesabatı təqdim etməkdən məmnuniyyət duyur. Məsləhətçi heyətin qısa profili 2 saylı Əlavədədir.

1.2. Asiya İnkişaf Bankı (AİB) Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) müraciətinə müvafiq olaraq ölkənin hasilat sənayesində daha irəli şəffaflıq tədbirlərinin görülməsi məqsədilə layihəni maliyyələşdirir. AİB rəqabətli tender prosesindən sonra BSYX-nin tətbiqi layihəsini icra etmək üçün BDO Azərbaycan rəhbərliyində məsləhətçilər konsorsiumu seçdi. Bu hesabat məsləhətçilərin 15 may 2018-ci il tarixli yenilənmiş Texniki Tapşırıqlara (TT) və AİB və ARDNF ilə 25-28 iyun 2018-ci il tarixlərində İlkin Missiya zamanı baş tutmuş görüşlərə uyğun olaraq layihəni necə icra edəcəkləri barədə təfərrüatları əhatə edir. Bu hesabat layihənin məqsədlərini, əhatə dairəsini, metodologiyasını, heyət üzvlərini, cədvəli, nəticələrini müəyyən edir və layihəyə bəzi məhdudiyyətləri vurğulayır.

1.3. 5 aprel 2017-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə ölkədə neft, qaz və mədən sənayesində şəffaf hesabat prosesinin aparılması üçün Azərbaycanda Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya (HSŞK) yaradıldı. HSŞK-nın katibliyi ARDNF-in nəzdindədir. Onun əsasnaməsi 6 iyun 2018-ci il tarixində Nazirlər Kabinetinin 252 nömrəli Qərarı[5] ilə təsdiq edilmişdir. HSŞK Katibliyinin səlahiyyətlərinə hasilat sənayesində şəffaflığın təmin olunması üçün qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərə baxılması daxildir. Bu iş Azərbaycanda BSYX-nin tətbiqini əhatə edir. Şəffaf hesabatlılığa davam edən bağlılığın bir hissəsi kimi ARDNF hazırda bu yol xəritəsinin tətbiqinə dəstək axtarır.

1.4. Benefisiar sahibliyin açıqlanması vətəndaşlar, hökumət, sənaye iştirakçıları və yerli və beynəlxalq maliyyə təminatçıları üçün hasilat sənayesinin bütövlüyünə inam və əminlik yaradılmasında böyük addımdır. Beynəlxalq investorların və maliyyə təminatçılarının geniş şəffaflığa tələbatı artmaqdadır. Eyni zamanda hökumətlər vergidən yayınma, korrupsiya və çirkli pulların yuyulmasının qarşısını almağa çalışdığı üçün şirkətlərin benefisiar sahibliyinə daha çox diqqət edilir. Şirkətlərin benefisiar sahiblərinin açıqlanması istiqamətində qlobal axım var. Azərbaycan öz neft, qaz və mədən sektoruna investisiya və maliyyələşmə cəlb etməkdə davam etdiyi üçün, o daha şəffaf gözləntiləri, o cümlədən hasilat sənayesi sektorunda çalışan şirkətlərin benefisiar sahiblərini təmin etmək istəyəcəkdir. Azərbaycan belə investisiyanı və maliyyələşdirməni cəlb etmək məqsədilə bir çox digər ölkələrlə rəqabətdə olub və olacaqdır və daha çox şəffaflıq təklif edən ölkələr bu işdə daha uğurlu olacaqdır.

[5] http://e-qanun.az/framework/39116

1.5. Benefisiar sahiblik nəticə etibarilə bir şirkət və ya ticarət fəaliyyətindən birbaşa və ya dolaylı fayda təmin edən fiziki şəxsə aid edilir. Benefisiar sahibliyin açıqlanmasının vahid qlobal standartı yoxdur. Müxtəlif təfərrüatlı təriflər var və bu layihə Azərbaycan üçün uyğun tərifin tərtib edilməsini əhatə edir.

1.6. Bu maraqlı tərəflərə həqiqətdə hasilat sənayesində kimin gəlirlərdən faydalandığını və ya sektordakı şirkətləri kimin idarə etdiyini müəyyənləşdirməyə icazə verir və hesabatlılığı artırır. Benefisiar sahibliyin açıqlanması hasilat sənayesi gəlirərinin həqiqi benefisiarlarının qeyri-şəffaf qurama şirkətlərin arxasında gizlənməyinin və ya mürəkkəb korporativ və ya digər hüquqi quruluşlardan istifadə edərək gəlirin bəyan edilməsindən qaçmağın, vergidən yayınmasının, mənfəət çatışmasını gizlətmək və ya çirkli pulların yuyulması, korrupsiya fəaliyyəti və ya cinayət fəaiyyətini və ya zorakılıq fəaliyyətinin, o cümlədən terrorizmin maliyyələşdirilməsi qarşısını alır. Benefisiar sahibliyin açıqlanması həmçinin maraqlı tərəflərə hasilat sənayesinə kimin investisiya qoyduğunu və siyasi nüfuz sahibləri (SNS) ilə olan əlaqələrini görməyə icazə verir.

1.7. Benefisiar sahibliyin açıqlanması bir konsept kimi hələ də inkişaf edir. Tapşırıq boyu Məsləhətçilər beynəlxalq səviyyədə qəbul olunmuş qabaqcıl təcrübədə inkişafı izləyəcək. Lazım olduqca bunu nəticələrdə əks etdiriləcək. Azərbaycan da daxil olmaqla, bir çox ölkə çirkli pulların yuyulması qanunvericiliyinin bir hissəsi kimi benefisiar sahiblik konseptini öz qanunvericiliyinə daxil etmişdir. Hərçənd bu məlumatın hasilat sənayesi ilə əlaqəli şirkətlər üçün ictimaiyyətə açıqlanması sektorda idarəetmənin və hesabatlılığın inkişafı vasitəsilə daha çox fayda verə bilər.

1.8. İlkin Missiya tərəfindən də məlumatlandırıldığı kimi, bu hesabat layihənin TT-yə müvafiq olaraq nəticəsi barədə Məsləhətçilərin rəylərini əks etdirir. Bakıda maraqlı tərəflərin ilkin görüşündə əldə edilən məlumatlardan yola çıxaraq o, layihənin əsas elementlərini – hədəfini, əhatə dairəsini və tətbiq edilməli olan layihə metodologiyasını müəyyən edir. O həmçinin nəticələri və son tarixləri müəyyənləşdirir.

## 2. İlkin Missiyanın Əsas Nəticələri

2.1. Məsləhətçilər 25-28 iyun 2018-ci ildə Bakıda AİB heyəti ilə görüşdükləri və TT-yə müvafiq olaraq layihənin əhatə dairəsini və nəticəsini müzakirə etdikləri İlkin Missiya təşkil etdilər.

2.2. İlkin Missiya zamanı hökumətdən, sənaye və vətəndaş cəmiyyəti təşkilarlarından maraqlı tərəflərlə layihə üzrə ilkin fikirləri əldə etmək üçün görüşlər keçirildi. Məsləhətçilər aşağıdakılarla görüşdülər:

- ARDNF
- HSŞK Katibliyi
- Energetika Nazirliyi
- Maliyyə Nazirliyi
- İqtisadiyyat Nazirliyi
- “BP”
- “Total”
- İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi
- “Caspian Barrel”
- Böyük Britaniya Səfirliyi
- AYİB
- Dünya Bankı

2.3. Bu görüşlərdən hasil olan əsas məsələlər bunlar idi:

- Azərbaycanın qabaqcıl beynəlxalq praktikaya uyğun olaraq və beynəlxalq qəbul olunmuş prinsiplər (məsələn Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünün (HSŞT) əsas prinsipləri) əsasında BSYX-ni tətbiqi üçün hiss olunan, güclü dəstək;

- Azərbaycanın davamlı iqtisadi inkişafda beynəlxalq maliyyə və investisiyaya çıxışa ehtiyacı olması daha böyük şəffaflıq, o cümlədən benefisiar sahiblik üçün əsas amildir;

- Benefisiar sahibliyin hasilat sənayesində neft, qaz və mineralların kəşfi, işlədilməsi, hasilatı, ötürülməsi və ixracı (“upstream” və “midstream”) ilə məhdudlaşması barədə ümumi razılıq;

- Güclü dəstəyin olmasına baxmayaraq Azərbaycanın hasilat sənayesində benefisiar sahibliyin tətbiqində çətinliklərin olacağının tanınması və buna görə də əldə edilməli olan şəffaflıq həddinin real olmasına ehtiyac.

## 3. Məqsədlər

3.1. Razılaşdırılmış TT-yə əsasən bu tapşırığın əsas məqsədi Azərbaycanın HSŞK-ya BSYX-nin tətbiqində dəstək verməkdir. TT-ni və Məsləhətçilərin İlkin Missiyasının əsas tapıntıları nəzərə alaraq tapşırıq bunları təmin edəcək:

- qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan və maraqlı tərəflərlə məsləhət ilə dəstəklənən benefisiar sahiblik tərifi, o cümlədən həddi;
- Azərbaycan Respublikası Konstitusiyası və hər hansı digər müvafiq qanunvericiliyə, o cümlədən fərdi məlumatların qorunması və lisenziyalaşmada hasilat layihələrində SNS üçün ziddiyyətin qarşısını alan aktivlərin açıqlanması mexanizminə uyğun olaraq, açıqlama üçün tövsiyə edilən dərəcədə benefisiar sahiblik məlumatı təfərrüatı;
- tövsiyə edilən məlumat toplanması, açıqlanması (benefisiar sahiblik reyestrləri və mövcud digər platformalar) və məlumatın dəqiqliyini təmin etmək ilə bağlı mexanizm;
- şirkətlər tərəfindən təmin edildikcə, məlumatın dəqiqliyini təsdiq etmək üçün tövsiyə edilən proses, o cümlədən hesabat verməmək və ya yanlış hesabat verməklə əlaqədar effektiv sanksiyalar;
- benefisiar sahibliyin açıqlanmasının qabaqcıl beynəlxalq təcrübəyə uyğun və məsləhətləşmə sessiyasına əsasən maraqlı tərəflərin dəstəklədiyi formada asanlaşdırmaq üçün mövcud qanunvericiliyə və qaydalara dəyişiklik layihələri;
- benefisiar sahibliyi və açıqlanmasının faydalarını daha yaxşı anlamaq üçün hökumət rəsmiləri, qanunvericilər, hasilat sənayesi icraçıları, sivil cəmiyyət nümayəndələri, jurnalistlər və elmi işçilər daxil olmaqla maraqlı tərəflər arasında maarifləndirmə kampaniyası.

3.2. BSYX-nin tətbiqi vasitəsilə benefisiar sahibliyin açıqlanması rejiminin yaradılması Azərbaycana hasilat sənayesi ilə əlaqədar şəffaflıq sahəsində davamlı liderlik imkanı verəcək. Bundan əlavə bu maraqlı tərəflərə hasilat sənayesinə kimin investisiya qoyduğu barədə məlumat əldə etməyə imkan verəcək və bu sektorun Azərbaycanda idarəetməsini inkişaf etdirəcək. Təkmilləşmiş idarəetmə bütün maraqlı tərəflərdə, o cümlədən, investorlar, maliyyəçilər və vətəndaşlarda hasilat sənayesinə daha çox ümumi etibar qazandıracaq.

## 4. Əhatə dairəsi

4.1. Məsləhətçilər razılaşdırılmış TT əsasında Azərbaycanda benefisiar sahiblik hesabatının əhatə dairəsi üçün variantlar təkmilləşdirəcəklər. TT-ni və İlkin Missiyanın əsas tapıntılarını nəzərə alaraq, Məsləhətçilər bir çox potensial həll yolunu diqqətə alacaqlar. Bunlar maraqlı tərəflərlə əlaqələr və interaktiv məsləhətləşmə/təsdiq prosesi vasitəsilə azaldılacaq.

4.2. Bu proseslər razılaşdırılmış benefisiar sahibliyin tərifi, həddi və tətbiq oluna bilən olması (məsələn, hansı şirkətlər benefisiar sahiblik bəyannaməsi verməlidir) ilə nəticələnəcək.

4.3. Bu proseslərin nəticələri əldə edilənə qədər əhatə dairəsinə aşağıdakı şirkətlərin daxil olması ehtimal olunur:

- neft, qaz və mineralların kəşfi, işlənməsi və hasilatı ilə əlaqədar lisenziyalara müraciət edənlər;
- neft, qaz və mineralların kəşfiyyat fəaliyyətinin icra edənlər;
- neft, qaz və mineral resurslarını işlədənlər;
- neft, qaz və mineralların hasilatı ilə məşğul olanlar;
- ixrac kəmərlərini idarə edən şirkətlər də daxil olmaqla neft, qaz və mineralların ixracı ilə məşğul olanlar;
- neft, qaz və mineral hasilatı dövlətin paylarının alanlar;
- yuxarıdakı fəaliyyətlərdən hər hansı birinin həyata keçirilməsi məqsədilə bir-biri ilə ortaq razılaşma bağlayanlar; və
- yuxarıdakı fəaliyyətlərdən hər hansı birinin həyata keçirilməsi məqsədilə mühəndislik, təchizat və tikinti (MTT), əməliyyat və xidmət (ƏX) və digər material uzun müddətli xidmət müqavilələri bağlayanlar.

4.4. Tapşırığın əhatə dairəsi əsas diqqəti kəşfiyyat və hasilat (“upstream”) və nəqliyyat və saxlama (“midstream”) sektorlarına verəcək və emal və satış (“downstream”) sektorundakı şirkətləri – məsələn emal edilmiş neft, qaz və ya mineral məhsullarının Azərbaycanda satış və marketinqində iştirak edən şirkətlər – daxil etməyəcək.

## 5. Metodologiya

5.1. Razılaşdırılmış TT əsasında və İlkin Missiyanın əsas tapıntılarını nəzərə aldıqda bu tapşırıq üçün metodologiya aşağıda qeyd olunanların əsasında olacaq:

- təriflər və qanunvericilik də daxil olmaqla benefisiar sahibliyin açıqlanmasında qabaqcıl beynəlxalq təcrübənin kameral araşdırılması;
- Azərbaycanın hazırki müvafiq qanunvericiliyi, praktika və proseslərin təhlili;
- hökumət, qanunvericilər, şirkətlər, sivil cəmiyyət və elmi işçilər də daxil olmaqla bir çox maraqlı tərəflə münasibətlərin qurulması;
- məsləhətləşmə/təsdiq sessiyaları.

### a. Kameral Araşdırma

5.2. Kameral araşdırma benefisiar sahibliyin tərifinin verilməsində qabaqcıl beynəlxalq praktika və açıqlama üçün qanunvericiliyə diqqət edəcək. Bu araşdırmanın bir hissəsi kimi Məsləhətçilər artıq hasilat sənayesi sektorunda benefisiar sahibliyin açıqlanması rejimləri tətbiq edən bir neçə ölkənin təcrübəsini nəzərə alacaq. Məsləhətçilər bu tapşırıq və benefisiar sahiblik qanunvericiliyi mənbələri üçün bir neçə müqayisə ediləcək ölkə və ərazi müəyyən edib. Seçilmiş müqayisə ediləcək ölkələr ən azından aşağıdakı meyarlardan ikisinə cavab verməlidir:

- Beynəlxalq Valyuta Fondu tərəfindən resurslarla zəngin ölkələr üçün istifadə olunan tərifə uyğun olmaq, məsələn, illik gəlirinin ən az 25%-i və ya ən azından ümumi ixracının6 ən az 25%-i hasilat sektoruna aid olan ölkələr.
- qanunvericiliyə əsasən benefisiar sahibliyin açıqlanması rejiminə malik olmaq;
- Azərbaycan ilə bənzər və ya daha qabaqcıl iqtisadi inkişafa nail olmaq.

5.3. Qabaqcıl beynəlxalq təcrübəni öyrənməkdə istifadə edilən ölkə və ərazilərə bunlar daxil ola bilər: Avstraliya, Qırğızıstan, Monqolustan, BK, Ukrayna və Zambiya. Bura həm HSŞT tətbiq edən, həm də HSŞT-ə daxil olmayan ölkələr daxil ola bilər. Əlavə olaraq Məsləhətçilər benefisiar sahibliyə Avropa Birliyi (AB), Birləşmiş Millətlər Təşkilatı (BMT), Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və Maliyyə

[6] p2, note 8: http://www.imf.org/external/np/pp/2007/eng/101907g.pdf

Fəaliyyəti Vəzifə Qrupu (MFVQ) daxil olmaqla beynəlxalq institutların yanaşmasına baxacağıq.

## b. Azərbaycan Qanunvericiliyinin Təhlili

5.4. Azərbaycanın müvafiq qanunvericiliyi və qaydalarının təhlili benefisiar sahibliyin açıqlanmasını asanlaşdıran və ya maneə təşkil edən mövcud müddəaları nəzərə alacaq. Təhlil aşağıdakıları əhatə edəcək:

- Azərbaycan Respublikası Konstitusiyası
  Azərbaycanda qanunvericilik prosesini başa düşmək üçün Azərbaycan Respublikası Konstitusiyası və digər konstitusiya qanunları (o cümlədən, Normativ Hüquqi Aktlar haqqında Qanun).

- Fərdi məlumatlar və gizlilik haqqında qanunları
  Fərdi məlumatlar və gizlilik qanunları benefisiar sahibliyin hər hansı açıqlamasının fərdi məlumatlar və gizlilik haqqında qanunvericiliyin mühafizə tələbləri ilə ziddiyyət təşkil edib-etmədiyini müəyyən etmək üçün təhlil edilməlidir.

- Şirkət qeydiyyatını və kommersiya hüquqi şəxslərin dövlət reyestrinin aparılması qanun və qaydaları
  Şirkət qeydiyyatı və kommersiya hüquqi şəxslərin dövlət reyestrinin aparılması haqqında qanunvericiliyin təhlili. Məsləhətçilər hazırda belə anlayır ki, bunlar benefisiar sahibliyin ictimai açıqlanması üçün maneə təşkil edir.

- Vergi qanunları
  Azərbaycan Respublikası Vergi Məcəlləsi şirkətin payçıları (iştirakçıları) və onların payları haqqında məlumatları açıq şəkildə gizli hesab edir.

- Maliyyə hesabatı və çirkli pulların yuyulmasına qarşı qanunlar
  Azərbaycanın çirkli pulların yuyulması haqqında qanunları benefisiar sahibliyə tərif verdiyi üçün bu sahədə qanunvericiliyin təhlili əhəmiyyətlidir.

- Dövlət satınalmaları qanunları
  Azərbaycanda dövlət satınalmaları prosedurları zamanı ümumiyyətlə və ya nə dərəcədə benefisiar sahiblik məlumatlarının açıqlanmasının tələb olunduğunu müəyyən etmək üçün dövlət satınalmaları qanunvericiliyinin təhlili əhəmiyyətlidir.

- Neft, qaz və mineralların kəşfi və istismarı qanunları
  Benefisiar sahiblik məlumatlarının açıqlanması tələblərinin müvafiq xüsusi qanunlara (məsələn, lisenziyalaşma ilə əlaqədar) necə daxil edilməsinin nəzərə alınması üçün hasilat sənayesi sektoruna tətbiq edilən xüsusi qanunvericiliyin təhlili əhəmiyyətlidir.

- Kommersiya sirləri haqqında qanunvericilik

Hazırda şirkətin payçıları (iştirakçıları) və onların payları haqqında məlumatlar Azərbaycan qanunları tərəfindən gizli hesab edilir.

5.5. Məsləhətçilər qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq və maraqlı tərəflərlə məsləhətləşmə proseslərinin dəstəyi ilə benefisiar sahiblik məlumatların açıqlanmasını asanlaşdırmaq məqsədilə mövcud qanunvericiliyə və qaydalara dəyişiklik layihəsini hazırlayacaqlar. Məsələn, Vergi Məcəlləsi və ona tabe qanunvericilik Azərbaycanda benefisiar sahiblik məlumatlarının açıqlanması qarşısında olan maneələri aşmaq üçün təhlil edilməli olan hüquqi aktlar arasında olacaq.

### c. Maraqlı Tərəflərin Cəlb Edilməsi

5.6. Məsləhətçilər tapşırıqları yerinə yetirmək üçün müxtəlif əlaqəli maraqlı tərəfləri cəlb edəcək. Bunun məqsədləri aşağıdakılardır:

- bu ərazidə benefisiar sahibliyin açıqlanması konseptinə və onun faydalarına, eləcə də qabaqcıl beynəlxalq təcrübə barədə maarifləndirmə;
- benefisiar sahibliyin açıqlanmasının tətbiqini təşviq edəcək faktorları müəyyənləşdirmək;
- benefisiar sahibliyin açıqlanmasına potensial maneələri müəyyən etmək; və
- BSYX-nin tətbiq edilməli olduğu barədə ümumi razılığı əldə etmək.

5.7. Məsləhətçilər aşağıdakı maraqlı tərəfləri cəlb edəcək:

- ARDNF, BSYX layihəsini tətbiq edən və hasilat sektorunda şəffaflığı müdafiə edən agentlik;
- HSŞK və onun Katibliyi. Bu, şəffaflığı artırmağı məqsəd qoyan əsas agentlikdir və BSYX layihəsini asanlaşdırmaqda vacib rol oynayacaq;
- Energetika Nazirliyi, ölkədə energetika siyasətini müəyyən edir və tətbiq edir. Nazir müavini HSŞK-nın üzvüdür;
- Vergilər Nazirliyi. Nazirliyin kommersiya hüquqi şəxslərin reyestrini aparmaq öhdəliyi var və o, benefisiar sahibliyin açıqlanmasının tətbiqində mühüm rol oynaya bilər. Nazir müavini HSŞK-nın üzvüdür;
- İqtisadiyyat Nazirliyi. Nazirlik iqtisadi siyasəti müəyyən edir və HSŞK-da təmsil olunur;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Nazirlik mineral hasilatı siyasəti ilə bağlı məsuliyyət daşıyır və bu səbəbdən hasilat

sənayesinin şəffaflığında mühüm maraqlı tərəfdir. O, HSŞK-da təmsil olunur;

- Maliyyə Nazirliyi. Nazirlik bu layihə üçün icraçı agentlikdir və HSŞK-da təmsil olunur;

- Dövlət Statistika Komitəsi. HSŞK hasilat sənayesi məlumatlarının hesabatını tətbiq etmək məqsədilə Komitə ilə işləyir və bunun üçün də benefisiar sahibliyin açıqlanmasının tətbiqində rol oynaya bilər;

- ARDNŞ. Dövlətə məxsus olan və ölkədə müvafiq sənayeni formalaşdıran məsul bir neft və qaz şirkəti kimi layihədə əsas maraqlı tərəfdir. ARDNŞ investorların sektor barədə daha çox biliklənməsi və beynəlxalq maliyyəyə çıxışının olması imkanı ilə benefisiar sahibliyin açıqlanmasıdan faydalanacaq;

- Azərbaycanda kəşfiyyat və ya hasilat fəaliyyəti olan bütün beynəlxalq neft, qaz və mədən şirkətləri. Bu şirkətlər benefisiar sahiblərini açıqlamaq tələbi ilə rastlaşa bilər və həmçinin sektorda kiminlə iş gördükləri barədə daha çox məlumatlı olmaqla bu açıqlamadan fayda əldə edə bilərlər;

- Azərbaycanda kəşfiyyat və ya hasilat fəaliyyəti olan bütün yerli neft, qaz və mədən şirkətləri. Bu şirkətlər də həmçinin benefisiar sahiblərini açıqlamaq tələbi ilə rastlaşa bilər və həmçinin sektorda kiminlə iş gördükləri barədə daha çox məlumatlı olmaqla bu açıqlamadan fayda əldə edə bilərlər;

- Azərbaycanın hasilat sənayesində aktiv xarici və yerli investorlar və konsorsiumlarla müqavilə bağlayan Əsas beynəlxalq və yerli MTT, ƏX və digər uzunmüddətli xidmət podratçıları və yuxarıdakı fəaliyyətlərlə məşğul olan digər şirkətlər. Belə şirkətlər də həmçinin benefisiar sahiblik məlumatlarının açıqlaması üçün əhatə dairəsinə salına bilərlər;s

- Sivil cəmiyyət təşkilatları. HSŞK işinə cəlb edilmiş 44 təşkilat var. Onlar benefisiar sahibliyin açıqlanmasının potensial sonuncu istifadəçiləridir. Məsləhətçilərin bu təşkilatlarla əlaqə qurmağa çalışacaq;

- Azərbaycanda Ticarət Palataları, belə ki, onlar hasilat sənayesində aktiv olan və maarifləndirmədə rol ala biləcək şirkətlərlə mühüm kommunikasiya kanalı təşkil edirlər;

- Neft, qaz və mədən sektorunda ixtisaslaşan jurnalistlər. Benefisiar sahibliyin açıqlanmasının potensial sonuncu istifadəçiləri olmaqla, layihəyə maarifləndirmədə onlar da rol oynayacaqlar;

- Araşdırmaları müvafiq sahələri əhatə edən elmi işçilər. Onlar da benefisiar sahibliyin açıqlanmasının potensial sonuncu

istifadəçilərdir və layihəyə maarifləndirmədə onlar da rol oynayacaqlar;

- Beynəlxalq maliyyə institutları, çoxtərəfli, regional, iki tərəfli institutlar, publik və özəl kreditorlar, zaminlər, sığortaçılar və s. də daxil olmaqla gələcəkdə vacib layihələr üçün maliyyə qaynağı ola bilərlər və özlərinin müştərini tanı (MT) və dürüstlüyün yoxlanılması tələbləri (DYT) məqsədilə lazım olacaq benefisiar sahiblik məlumatlarının açıqlanmasını tələb edə bilərlər.

5.8. Bu əlaqələr birə-bir görüşlər, maraqlı tərəflərin spesifik qrupları (məs. şirkət nümayəndələri) üçün seminarlar, yazılı brifinqlərin təqdim edilməsi, e-mail və video konfranslar vasitəsilə təşkil olunacaq. Məsləhətçilər Azərbaycanda Hasilat Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına Dair Yol Xəritəsinin Tətbiqinə Dəstək Üçün Sual-Cavab Cədvəli (bax 3 saylı Əlavə) tərtib edib və mütəmadi olaraq onu yeniləməyi planlaşdırırlar. Məsləhətçilər maraqlı tərəflərlə proaktiv təşviq olunan əlaqələrin qurulması üçün bunun HSŞK-nın saytında yerləşdirilməsini məsləhət görürlər.

## d. Məsləhətləşmə Sessiyaları

5.9. TT-də qeyd olunduğu və İlkin Missiya zamanı ARDNF ilə danışıqlar zamanı təsdiq olunduğu kimi Məsləhətçilər, bu tapşırığın bir hissəsi kimi iki məsləhətləşmə sessiyası həyata keçirəcək (Bax 6-cı hissə). Birinci sessiya maraqlı tərəflərə təklif olunan benefisiar sahiblik tərifi barədə məsləhətləşmə imkanı yaradacaq. İkinci sessiya benefisiar sahibliyin açıqlanması rejiminin tətbiqi üçün qanunvericiliyə təklif olunan dəyişikliklərə diqqət edəcək.

5.10. Bu məsləhət tapşırıqlarından hər biri bunları ehtiva edəcək:

- məsləhət olunacaq təklifləri maraqlı tərəflər üçün müəyyən edən yazılı hesabatların ingiliscə və azərbaycanca təqdim edilməsi. Təkliflər həm benefisiar sahiblik, həm də qanunvericilik layihəsi üçün bir neçə variantı əhatə edəcək. Bu məsləhət sənədləri ictimaiyyətə açıqlanacaq;

- məsləhət prosesinə struktur təmin etmək məqsədilə xüsusi məsələlərə cavablar formasında yazılı məlumat verilməsini tələb etmək;

- maraqlı tərəflərə təklifləri dəyərləndirməsi və məlumat verməsi üçün kifayət qədər vaxt verən aydın vaxt cədvəlləri;

- maraqlı tərəflərə təkliflərin izah edilməsi və şifahi məlumatların alınması üçün seminarlar və brifinqlər;

- əsas maraqlı tərəflərin fərdi və ümumi maraqlarını daha yaxşı anlamaq və təkliflər barədə məlumat almaq üçün onlarla proaktiv əlaqələr;

- hər bir vacib qərarda davamlı razılığa gəlmək;

- əldə edilən məlumata rəylər də daxil olmaqla məlumatların nəticələrini müəyyən edən hesabat (Məsləhətləşmə sessiyaları hesabatları barədə təfərrüatlara dair nəticələr və vaxt cədvəli hissəsinə bax).

5.11. Birinci məsləhət üçün (tərif barədə) Məsləhətçilər 2018-ci ilin noyabr ayının ilk yarısında seminar təşkil etməyi planlaşdırır. Bütün müvafiq maraqlı tərəflər iştirak etməyə və məlumat təmin etməyə dəvət olunacaq. Qanunvericiliyə dəyişiklik layihələri barədə ikinci məsləhət üçün bənzər tədbir 2019-cu ilin ortalarına qabaqcadan planlaşdırılır. Bu məsləhət daha çox texniki olacaq və iştirak edən maraqlı tərəflərdə öz əksini tapacaq.

5.12. Uğurlu məsləhətləşmə ilə davamlı razılığa gəlmək ideal qəbul olunmaqla, Məsləhətçilər yekun qərar verilməsi üçün (məsələn, maraqlı tərəflər arasında konsensus yaranmasa) digər təcrübələr əsasında və Azərbaycanın hüquqi kontekstində başqa variantlar da təklif edəcəklər.

## 6. Nəticələr və Vaxt Cədvəli

6.1. TT-yə əsasən əsas nəticələr hər biri tapşırığın bir aspektinə xitab edən hesabatlar seriyasıdır (I-X saylı). Tim Law və Michael Barron (baxın 2 saylı Əlavə) tapşırığı üzrə ümumi heyət rəhbərləri kimi fəaliyyət göstərəcək və hər bir hesabatda işin koordinasiyası, layihələndirmə üzərində nəzarət və son məhsuldan məsul olan əlavə bir məsləhətçi olacaq. Hər bir hesabat, mümkün qədər tez azərbaycanca tərcüməsi də hazırlanmaqla ingiliscə olacaq.

6.2. Aşağıdakı 1 saylı Cədvəl hər bir hesabatın çatdırılması üçün təklif olunan vaxt cədvəlini müəyyənləşdirir. Xahiş edirik nəzərə alasınız ki, Məsləhətçilər III saylı və VI saylı Hesabat üçün son tarixin TT-dəki son tarixdən müvafiq şəkildə bir ay və altı həftə irəlilədilməsini təklif edir. Bu hesabatların hər biri üçün hazırlıq işlərindən bəziləri layihədə daha əvvəlki fəaliyyətlərlə paralel aparılacaq. Son tarixi irəlilətmək həm də sonrakı məsləhət tapşırıqları üçün daha çox vaxt qazanmağa icazə verir. Məsləhətçilər inanır ki, bir çox maraqlı tərəf benefisiar sahibliyin açıqlanmasının təfərrüatlı nəticələri ilə tanış olmaması səbəbilə hər iki məsləhətləşmə sessiyası üçün daha çox vaxtın ayrılması məqsədə uyğun olacaq.

**1 saylı Cədvəl: İcmal vaxt cədvəli**

| Layihənin Vaxt Cədvəli | | | |
|---|---|---|---|
| Hesabatlar | TT tarixi | Təklif olunan tarix | Həftə əvvəl |
| 2 saylı Hesabat: Qabaqcıl təcrübə Hesabatı | Cüm 27/07/18 | Cüm 27/07/18 | 0 |
| 3 saylı Hesabat: Təriflər layihəsi | Çər 31/10/18 | Baz 30/09/18 | 4 |
| 4 saylı Hesabat: Məsləhətləşmə prosesi haqqında hesabat | Cüm 30/11/18 | Cüm 30/11/18 | 0 |
| 5 saylı Hesabat: Mexanizm Layihəsi Hesabatı | Cüm ax. 31/01/18 | Cüm ax. 31/01/18 | 0 |
| 6 saylı Hesabat: Qanunvericilik layihəsi | Cüm 31/05/19 | Baz er. 15/04/19 | 7 |
| 7 saylı Hesabat: Məsləhətləşmə prosesi haqqında hesabatı | Baz 30/06/19 | Baz 30/06/19 | 0 |
| 8 saylı Hesabat: Maarifləndirmənin nəticələri | Şən 31/08/19 | Şən 31/08/19 | 0 |
| 9 saylı Hesabat: Yekun Hesabat | Cüm ax. 31/10/19 | Cüm ax. 31/10/19 | 0 |

6.3. Məsləhətçilər AİB-ni aylıq irəliləmə barədə yazılı formada məlumatlandıracaqlar. Bu hesabatın nümunəsi 4 saylı Əlavə kimi əlavə olunur.

6.4. Aşağıdakı 2 saylı cədvəl I-IX saylı bütün hesabatların hər birinin icmalını təqdim edir. Bu cədvəl hər hesabat üçün baş məsləhətçini müəyyən edir, onun mündəricatını və tamamlanmalı olan əsas fəaliyyətləri təmin edir.

6.5. AİB tərəfindən qəbul edildikdən sonra hər bir son hesabat layihəsi AİB tərəfindən ARDNF-in təhlili və rəyi üçün, uyğun olduqda ARDNF-a yol xəritəsinin tətbiqi və qabaqcıl beynəlxalq praktikaya uyğun olması üçün variantlarla birlikdə təqdim ediləcək. Ehtimal olunur ki, ARDNF rəylərini təqdim etmək və/və ya məxsusi bir variantı seçdiyini göstərmək üçün digər müvafiq maraqlı tərəflərdən məlumat əldə etmək istəyəcək. Amma

yenə də Məsləhətçilər hər məsələ üzrə tövsiyə olunan hərəkət kursu müəyyən edəcəklər və növbəti addımları təyin edəcəklər.

## 2 saylı Cədvəl: Nəticələrin icmalı

| Layihə Nəticələri | | | |
|---|---|---|---|
| Nəticə | Baş məsləhətçi | İçindəkilərin icmalı | Fəaliyyət |
| 2 saylı Hesabat: Qabaqcıl təcrübə Hesabatı | MB | BS tərif modelləri<br>BS tərifində əsas elementlər<br>Qabaqcıl beynəlxalq praktika | BS tərif modellərinin araşdırılması<br>BS modellərinin analizi<br>Qabaqcıl beynəlxalq praktikanın təhlilinin hasil edilməsi |
| 3 saylı Hesabat: Tərif layihəsi | JH | Hazırki milli qanunvericiliyin icmalı<br>Tərəflər üçün məsləhətlərlə dəstəklənən, qabaqcıl beynəlxalq praktikanı əks etdirən bir sıra variant və əhatə dairəsi<br>Açıqlama baxımından şirkətlər və fərdlər | Konstitusiya və mövcud qanunvericiliyə baxış<br>Maraqlı tərəflərlə əlaqələr və rəhbərlik<br>BS tərifi layihəsi<br>Əhatə dairəsindəki şirkət və fərdlərin siyahısının hazırlanması |
| 4 saylı Hesabat: Məsləhətləşmə prosesi haqqında hesabat | MB | Məsləhətləşmə prosesi gündəmi<br>İştirakçılar<br>Əldə edilən məlumatların cədvəli<br>Əldə edilən məlumatlara rəy | Proses və vaxt çərçivəsi baxımından 3 saylı Hesabatın məsləhət sənədi kimi paylanılması<br>Maraqlı tərəflərlə brifinq, seminar və görüşlərin keçirilməsi<br>Təkrar əlaqələrin qurulması<br>Məlumatların toplanması və təhlili |
| 5 saylı Hesabat: Mexanizm Layihəsi Hesabatı | TL | Təklif edilən hesabat mexanizmi<br>Təriflər üçün tövsiyyələrlə dəstəklənən, qabaqcıl beynəlxalq praktikanı əks etdirən bir neçə variant<br>Təklif edilən yoxlama prosesi<br>Vergilər Nazirliyi, digər hökumət orqanları və müvafiq maraqlı tərəflərlə əlaqələrin nəticəsi | Hesabat nümunəsi layihəsinin hazırlanması<br>Mexanizm layihəsində, nümunədə və təsdiqdə maraqlı tərəflərin iştirakı<br>Maraqlı tərəflərlə əlaqələrdən əldə edilən məlumatların təhlili |
| 6 saylı Hesabat: Qanunvericilik layihəsi | SA | Qanunvericiliyə təklif olunan dəyişikliklər və cəzalar üçün bir sıra variantlar | Qanunvericiliyə dəyişiklik layihəsi və BS-in tətbiqi üçün cəzalandırma rejimi tərtib etmək |
| 7 saylı Hesabat: Məsləhətləşmə prosesi haqqında hesabat | SA | Məsləhətləşmə prosesi gündəmi<br>İştirakçılar<br>Əldə edilən məlumatların cədvəli<br>Əldə edilən məlumatlara rəy | Proses və vaxt çərçivəsi baxımından 6 saylı Hesabatın məsləhət sənədi kimi paylanılması<br>Maraqlı tərəflərlə brifinq, seminar və görüşlərin keçirilməsi<br>Təkrar əlaqələrin qurulması<br>Məlumatların toplanması və təhlili |
| 8 saylı Hesabat: Maarifləndirmənin nəticələri | MB | Həyata keçirilən bütün maarifləndirmə fəaliyyətinin təsviri<br>Əldə edilən məlumatların cədvəli<br>Məlumatların dəyərləndirməsi<br>Maarifləndirmə fəaliyyətinin təsirləri | Tapşırıq boyu fəaliyyətin qeydə alınması<br>Əldə edilən məlumatların qeydə alınması<br>Məlumatların toplanması və təhlili<br>Təsirin dəlillərinin toplanması |
| 9 saylı Hesabat: Yekun Hesabat | TL | 2-8 saylı Hesabatların icmalı<br>Tapşırıqdan tapıntılar<br>Tövsiyyələr | Bütün fəaliyyətin, maraqlı tərəflərlə əlaqələrin və məlumatların təhlili<br>Tapıntıların və məsləhətlərin tərtib edilməsi |

## 7. Məhdudiyyətlər

.1. Məsləhətçilər bu tapşırıqda nələrin əsas məhdudiyyət ola biləcəyini nəzərə aldılar. Bu faktorlar standartın altında nəticələr əldə olunmasına səbəb ola və Məsləhətçilərin yerli və beynəlxalq təcrübəsini, o cümlədən İlkin Missiyanın nəticələrini əks etdirə bilər.

.2. Bu mərhələdə müəyyən olunan əsas məhdudiyyətlər bunlardır:

- Azərbaycanda maraqlı tərəflər arasında benefisiar sahiblik konseptinin və onun faydalarının məhdud ilkin anlaşılması;
- maraqlı tərəflər arasında daha əvvəl HSŞT və HSŞK tərəfindən açıqlanmamış şəffaflığın daha geniş faydalarının daha məhdud şəkildə ilkin anlaşılması;
- maraqlı tərəflərin görüşlər üçün əlçatan olmaması və sorğulara cavab verməkdə mümkün gecikmələr;
- məsləhətləşmə sessiyalarına cavabların vaxtında və konstruktiv şəkildə verilməməsi;
- Məsləhətçilərin layihə əsnasında incələyəcəyi, onlardan yenidən qanunvericiliyi yoxlamaqlarını və təkliflərinin etibarlı qaldığına əmin olmaqlarını tələb edəcək qanunvericiliyə digər dəyişiklər.
- Layihə ərzində, Məsləhətçilərin yoxluğunda maraqlı tərəflər arasında bir-biri ilə birbaşa yaradılan əlaqələrin qeyri-məhsuldarlığı;
- əlaqəli maraqlı tərəflərin layihə məsləhətləşmə/təsdiq prosesləri kontekstindən kənar birbaşa lobbiçiliyi.

# 1 saylı Əlavə: Benfisiar Sahiblik Məlumatlarının Açıqlanmasına Dair Yol Xəritəsinin İcrasını Dəstəkləmək Üçün Texniki Tapşırıq Və Məsləhətçilərin Kvalifikasiyası

**A. Məlumat**

1. Dekabr 2016-cı ildə Azərbaycan Hökuməti (AH) Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) nəzdində yaradılmış Azərbaycanın yanında Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü (HSŞT) üzrə Katibliyi (AES) vasitəsilə fəaliyyət göstərərək Azərbaycanın Mədən Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanması üzrə Yol Xəritəsini (BSYX) 2016-cı il üzrə HSŞT Standartına uyğun olaraq razılaşdırmış və dərc etmişdir. Yanvar 2017-ci ildə AES Azərbaycan Respublikasının *Mədən Sənayesində BSYX-nin Maliyyələşdirmə Tələb edən Fəaliyyətləri* (2017-2019) adlı sənədi dərc etmişdir. Bu sənəd BSYX-nin icrasını istiqamətləndirmək məqsədilə Azərbaycan HSŞT Çoxtərəfli Qrupu (ÇTQ) tərəfindən təsdiqlənmişdir.

2. BSYX-nın icrasının məqsədi Azərbaycanın mədən sənayesində şəffaflığın daha da gücləndirilməsi və etibarsız korporativ qurumlar tərəfindən korrupsiyanın və vergidən yayınmanın qarşısının alınmasıdır. AES-in hesablamalarına əsasən 600 000 manat dəyərində ARDNF tərəfindən maliyyələşdirilən büdcənin 200 000 manat illik dəyəri olan üç tranş (hər tranş üzrə büdcə bərabər paylanılır) vasitəsilə aşağıdakı fəaliyyətlərin həyata keçirilməsi məqsədilə xərclənəcəyi gözlənilir:

(i) Müxtəlif hökumət qurumları, biznes icması və vətəndaş cəmiyyəti ilə benefisiar sahiblik üzrə çərçivə və qanunvericiliyin hissələri üzrə ümumi çərçivənin hazırlanması sahəsində əməkdaşlıq, müzakirələr və məsləhətləşmələrin aparılması;
(ii) Beynəlxalq qabaqcıl təcrübənin nəzərdən keçirilməsi, bütün zəruri mexanizmlərin hazırlanması və qanunvericiliyin bütün zəruri hissələrinin hazırlanması;
(iii) Potensialın gücləndirilməsi və İƏ ilə bağlı fəaliyyətlərin (təşviqat) həyata keçirilməsi;
(iv) Benefisiar sahiblik məlumatlarının açıqlanması üzrə dövlət qeydiyyatının yaradılması və digər qanunvericilik və inzibati işlərin başa çatdırılması; və
(v) BSYX-da nəzərdə tutulan fəaliyyətlərin icrasına nəzarətin monitorinqinin aparılması.

3. Fevral 2017-ci ildə Asiya İnkişaf Bankı (AİB) BSYX-nın icrasını təmin etmək məqsədilə beynəlxalq qabaqcıl təcrübənin müəyyənləşdirilməsi və Azərbaycanın mövcud qanunvericliyinə zəruri dəyişikliklərin hazırlanması sahələrində yuxarıda qeyd olunan fəaliyyətlərin (ilkin olaraq ARDNF tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulan) tamamlanması ilə BSYX-nın icrasını dəstəkləmək üçün AES/ARDNF-dən müraciət almışdır. Bu müraciətə cavab olaraq və 2016-cı il üzrə HSŞT Standartına riayət etmənin təmin olunması istiqamətində AH-nin səylərinə yardım etmə sahəsində AİB-in öhdəliklərinin davamı olaraq, AİB BSYX-ın icrasına AİB dəstəyinin miqyası və zamanını müzakirə etmək və Texniki Tapşırıqları (TT) müvafiq olaraq hazırlamaq məqsədilə 13-17 mart 2017-ci il tarixlərində missiya təşkil etmişdir. Azərbaycanın 9 mart 2017-ci il tarixində HSŞT-də üzvlüyünün dayandırılmasından dərhal sonra AH 10 mart 2017-ci il tarixində HSŞT-ni tərk etdiyini bəyan etmişdir. Bu addıma baxmayaraq, AİB missiyası davam edərək HSŞT-ni tərk edənə kimi AES-in öhdəliklərinə nəzarət edən ARDNF-in icraçı direktoru, Azərbaycan Respublikasının Maliyyə Naziri (MN)/AİB-in müdiri və Azərbaycanın bir sıra digər inkişaf tərəfdaşları ilə görüşmüşdür. Həm ARDNF-nin icraçı direktoru, həm də MN təsdiq etmişdir ki, AH Azərbaycanın mədən sənayesində əldə olunan gəlirlərlə bağlı şəffaf hesabatvermə fəaliyyətlərinə sadiq qaldığını təsdiqləmişdir.

4. 5 aprel 2017-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti “Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”nı (bundan sonra “Fərman”) imzalamışdır. Fərmanda qeyd olunur ki, ölkənin hasilat sənayesi ilə bağlı bütün məlumatlar beynəlxalq standartlara uyğun olaraq tam açıqlanmalıdır. Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya (bundan sonra “Komissiya”) Fərmana uyğun olaraq təsis olunmuşdur. Komissiyanın Katibliyi (bundan öncə AES) Komissiyaya texniki və təşkilati dəstəyi təmin edir və onun gündəlik

fəaliyyətinin təşkil olunmasından məsuldur. Komissiya bütün müvafiq tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) fəal cəlb olunduğu sahələrdə şəffaf hesabatvermə proseslərinin icrası üzrə yeni çərçivəni formalaşdırmışdır. VCT-lərlə bu vaxta qədər keçirilmiş müxtəlif görüşlər zamanı Komissiya bu proseslərdə vətəndaş cəmiyyətinin qeyri-şərtsiz iştirakını, o cümlədən hesabatların toplanılması və yoxlanılması üçün ixtisaslaşmış və müstəqil audit şirkətlərinin cəlb olunmasını vurğulamışdır. Ölkənin hasilat sənayesində şəffaflıqla bağlı bütün məsələlər, o cümlədən BSYX-ın icra fəaliyyətləri bütün maraqlı tərəflərin cəlb olunması ilə müzakirə olunur.

**B. Hədəflər**

5. Yuxarıda qeyd olunan məlumatlar, o cümlədən beynəlxalq qabaqcıl praktika və Azərbaycan Respublikasının müvafiq hüquqi və inzibati bazaları haqqında araşdırmalara əsaslanaraq, məsləhətçi heyət Komissiyanın BSYX-ın icra fəaliyyətlərini, o cümlədən müvafiq maraqlı tərəflərlə məsləhətləşmə proseslərini dəstəkləyəcək. Xüsusilə, aşağıdakı əsas sahələr dəstəklənəcək:

(i) Müvafiq qanunvericiliyə dəyişikliklərin hazırlanması və müvafiq maraqlı tərəflərlə ehtiyac olduğu təqdirdə məsləhətləşmələrin dəstəklənməsi;
(ii) Azərbaycan Respublikasının hüquq sistemində müvafiq benefisiar sahibliyinin tərifinin formalaşdırılması və ehtiyac olduğu təqdirdə müvafiq maraqlı tərəflərlə məsləhətləşmələrin dəstəklənməsi;
(iii) Azərbaycan Respublikasının Konstitusiyası və Fərdi Məlumatlar haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, toplamaq və açıqlanmaq üçün təfərrüatların adekvat səviyyəsinin müəyyən olunması;
(iv) Məlumatların toplanılması üçün müvafiq və əlçatan mexanizmlərin müəyyən olunması;
(v) Şirkətlər tərəfindən məlumatların dəqiqliyi, o cümlədən vaxtı-vaxtında olmasının təmin olunması; və
(vi) İctimaiyyət, sənaye və VCT-lərin bu təşəbbüslə bağlı yaxşı məlumatlandırılmasını təmin etmək məqsədilə maarifləndirici tədbirlərinin dəstəklənməsi.

**C. Fəaliyyətlər[7]**

6. Məsləhətçi heyəti aşağıdakıları həyata keçirməlidir:
(i) Beynəlxalq qabaqcıl təcrübə ilə bağlı araşdırmanın aparılması;
(ii) Azərbaycan Respublikasının Konstitusiyası və digər müvafiq qanunvericilik sənədlərini nəzərdən keçirərək toplamaq və açıqlamaq üçün təfərrüatların adekvat səviyyəsinin təklif olunması;
(iii) BSYX-nin icra obyekti kimi qurumların müəyyən olunması məqsədilə dövlət qurumları, mədən sənayesi şirkətləri, onların podratçı biznes tərəfdaşları, Komissiya və VCT-lərlə məsələhətləşmələrin aparılması;
(iv) Aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq benefisiar sahibliyin tərifinin hazırlanması:
 a) Sahiblik faizinin limiti;
 b) Birbaşa və dolayı sahiblik;
 c) Bu tərifin şamil ediləcəyi bir sıra mədən sənayesi şirkətləri, o cümlədən təchizatçılar, podratçılar və xidmət təchizatçıları; və
 d) Fiziki şəxslərə istinadlar (digər hüquqi şəxslərin əksinə olaraq), o cümlədən belə hüquqi şəxslərin benefisiar sahibinə uyğun olan siyasi xadimlər (SX).
(v) Təklif olunan benefisiar sahibliyin tərifinə uyğun olaraq benefisar sahiblik məlumatlarını təqdim etmək tələb olunan şirkətlərin növü və onların maraqlı tərəfləri və nümayəndələrini, o cümlədən SX-lərin müəyyən olunması;
(vi) “Milli Benefisiar Sahiblik Bəyannaməsi Forması”nın hazırlanması;

[7] (xi), (xii) və (xiii) bəndlərdə qeyd olunan fəaliyyətlərlə bağlı məsləhətçi BSYX-ın icrası üzrə hüquqi bazanın yaradılması məqsədilə iki alternativ seçimi nəzərdən keçirməlidir: (a) bütün müvafiq qanunvericilik və/və ya qaydalara dəyişikliklər; yaxud da (b) hər hansı mövcud qanunvericilik/qaydadan müstəqil olan BSYX-ın icrası ilə bağlı xüsusi yeni qanunun qəbul olunması.

(vii) Benefisiar Sahiblik üzrə Dövlət Qeydiyyatının (BSDQ) təşkili, hüquqi formalaşdırılması və nəzarəti, eləcə də BSDQ üzrə hesabatvermə, audit öhdəliyi, müstəqillik və hesabatlılıq və s.-nin yaradılması məqsədilə Verilər Nazirliyi ilə əlaqələr qurmaq;
(viii) Məlumatların toplanılmasından öncə benefisiar sahiblik bəyannamələrində məlumatların təmin olunması məqsədilə şirkətlər və fərdlər üçün müvafiq mexanizmin müəyyən olunması;
(ix) BSDQ-də təqdim olunan məlumatların yoxlanılması məqsədilə təklif olunan qanun dəyişikliklərində nəzərə alınmalı olan sənədlər siyahısının nəzərdən keçirilməsi;
(x) Məlumatların dəqiqliyi və düzgünlüyü ilə bağlı mexanizmlərə dair dövlət qurumları, mədən sənayesi şirkətləri və VCT-lər ilə məsləhətləşmələr;
(xi) BSYX-nin uğurlu icrasının təmin olunması məqsədilə aşağıdakılarla məhdudlaşmayaraq müvafiq qanunvericiliyə zəruri dəyişikliklərin müəyyən olunması və hazırlanması:
  (a) Benefisiar sahibliyinin tərifinin tətbiq edilməsi və benefisiar sahiblik məlumatlarının açıqlanması prosesinin müəyyənləşdirilməsi məqsədilə Yerin Təki haqqında Azərbaycan Respublikasının Qanunu;
  (b) Azərbaycan Respublikasının Vergilər Nazirliyində saxlanılan kommersiya hüquqi şəxslərinin mövcud dövlət qeydiyyatında benefisiar sahiblik məlumatlarının açıqlanmasının nəzərə alınması məqsədilə Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyesteri haqqında Azərbaycan Respublikasının Qanunu;
  (c) Mədən sənayesində benefisiar sahiblik məlumatlarının açıqlanmasının qadağan edilməməsi və "kommersiya sirri" anlayışı kimi qəbul edilməməsini təmin etmək məqsədilə Kommersiya Sirri haqqında Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi;
(xii) Natamam, qeyri-dəqiq və/və ya vaxtı keçmiş məlumatların benefisiar sahibliyi üzrə dövlət qeydiyyatına təqdim olunmasına görə inzibati və cinayət məsuliyyətinin və cərimələrin tətbiqi üzrə qanunvericliyin hazırlanması;
(xiii) Parlament, müvafiq dövlət qurumları, Komissiya və VCT-lərlə məsləhətləşmə prosesinin dəstəklənməsi və (müvafiq və ehtiyac olarsa) təqdim olunan rəylərin qanunvericilik layihəsində nəzərə alınması;
(xiv) Benefisiar sahibliklə bağlı islahatlarla bağlı maarifləndirmə tədbirlərinin dəstəklənməsi; və
(xv) Tapşırığın qənaətbəxş həyata keçirilməsi məqsədilə tələb olunan digər istənilən fəaliyyətin həyata keçirilməsi.

7. Biodata texniki təklifi ilə keyfiyyət və qiymət seçimi metodu ilə beynəlxalq məsləhət şirkəti cəlb olunacaq. Şirkət layihələndirmə və icra, icranın qiymətləndirilməsi və biliklərin idarə olunması fəaliyyətlərini dəstəkləyəcək və bütün siyasət tədbirlərinə riayət olunmasını təmin edəcək və proqram inzibatçılığı, vəsaitlərin istifadəsi və bütün layihə qeydlərinin saxlanılmasını həyata keçirəcək. Şirkət AİB-in layihə üzrə mütəxəssisi, məsləhətçi heyət və layihənin dövlət tərəfdaşları ilə fəaliyyətlərini əlaqələndirəcək.

8. Şirkət proqramın icrasına nəzarət etmək məqsədilə İQ-lə işçi mexanizmlərin formalaşdırılmasından və yeni yaradılmış Komissiya, hasilat sənayesi şirkətləri, o cümlədən VCT-lərlə əlaqələndirmədən məsul olacaq.

9. Şirkət beynəlxalq nüfuzlu şirkət olacaq və benefisiar sahiblik məlumatlarının açıqlanması sistemləri ilə bağlı işlər üzrə ən azı 10 illik müvafiq təcrübəyə malik olacaq. Azərbaycanda, Mərkəzi və Qərbi Asiyanın digər ölkələrində və ya digər regionlarda müvafiq iş təcrübəsinə üstünlük verilir.

10. Şirkət layihənin idarə olunması və iki (2) beynəlxalq və iki (2) yerli mütəxəssisdən ibarət məsləhətçi heyəti təşkil edəcək və onlara nəzarət edəcək. Müqavilə danışıqlarının bir hissəsi kimi nəticə əsaslı və vaxt əsaslı fəaliyyəti müəyyən edən ödəniş forması razılaşdırılacaq. AH tərəfindən heç və ya az asılı fəaliyyətlərlə bağlı ödənişlər nəticə əsaslı, orta və ya çox asılı fəaliyyətlərlə bağlı ödənişlər vaxt əsaslı olacaq. 1 saylı Cədvəldə sadalanan nəticələr müvafiq qaydada təsnifləndirilib. Məsləhətçi heyət layihənin gündəlik icrasını idarə edəcək, texniki və menecer nəzarətini və texniki göstərişlərini təmin edəcək. Cəmi on dörd (14) nəfər-ay

beynəlxalq və iyirmi iki (22) nəfər-ay milli məsləhətçi müvafiq olaraq aşağıdakı qaydada tələb olunacaq:

**1. Mədən Sənayesinin Şəffaflığı üzrə Baş Mütəxəssis və Qrup Rəhbəri (beynəlxalq; 8 nəfər-ay; qeyri-daimi)**

11. Mədən Sənayesinin Şəffaflığı üzrə Baş Mütəxəssis və Qrup Rəhbəri BSYX-nin icrası sahəsində hökuməti və digər müvafiq maraqlı tərəfləri dəstəkləyəcək. O, yalnız mədən sənayesini deyil, eyni zamanda mədən sənayesində podratçı biznes tərəfdaşlarını əhatə etmək məqsədilə BSYX-nin icrasına gələcək uzlaşdırılmalarla bağlı məsləhətləşmələri dəstəkləmək və siyasət dialoquna rəhbərlik etməkdən məsul olacaq.

12. Mütəxəssis/Qrup Rəhbəri BSYX-nin icrasının monitorinqini aparacaq və dəstəkləyəcək və Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsündən (HSŞT) kənarda yaradılmış mədən hasilatında şəffaflıq sahəsində ilk milli sistemlə bağlı qabaqcıl təcrübəyə dair sənədlər barədə və qlobal məlumatlandırma tədbirlərində istifadə üçün məlumatlandırma məhsullarını hazırlayacaq. O, aşağıdakıları həyata keçirəcək:

(i) aşağıdakılar üzrə müzakirələrə rəhbərlik edəcək:
   a. bu təriflə əhatə olunmalı olan bir sıra mədən sənayesi şirkətləri, o cümlədən milli təchizatçıların əhatə dairəsinin müəyyən olunması; və
   b. "BSYX Forması"-nın hazırlanması və Benefisiar Sahiblik üzrə Dövlət Qeydiyyatının hüquqi formalaşdırılması.

(ii) Benefisiar sahiblik ilə bağlı məlumatları təqdim etmək tələb olunan şirkətlərin əhatə dairəsi və onların nümayəndələrinin müəyyən olunması;

(iii) Məlumatların toplanılmasından öncə benefisiar sahiblik bəyannamələrində məlumatların təmin olunması məqsədilə şirkətlər üçün müvafiq mexanizmin müəyyən olunması və əhatə olunacaq qurumların müəyyən olunması məqsədilə dövlət qurumları, mədən sənayesi şirkətləri və onların təchizatçıları və vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmələrin aparılması;

(iv) Dövlət qurumları, mədən sənayesi şirkətləri və VCT-lərlə məlumatların təhlükəsizliyi və düzgünlük mexanizmləri üzrə məsləhətləşmələrin aparılması;

(v) Benefisiar sahiblik üzrə islahatlarla bağlı maarifləndirmə tədbirlərinin dəstəklənməsi;

(vi) benefisiar sahiblik üzrə qlobal standartlar (2016-cı il üzrə HSŞT Standartında qeyd olunanlar daxil olmaqla), o cümlədən, misal üçün Avropa və Mərkəzi və Qərbi Asiya ölkələrində qabaqcıl benefisiar sahiblik praktikaları ilə bağlı irəliləyişlərin monitorinqi və sənədləşdirilməsinin aparılması;

(vii) qrup rəhbəri funksiyasında texniki nəzarətin təmin olunması və AİB və müştəri ilə birbaşa əlaqənin saxlanılması;

(viii) heyətə nəzarətdən və texniki yardım vəsaitləri, o cümlədən təsdiq olunmuş təlimatlar çərçivəsində AH tərəfdaş qurumu ilə sazişlərin və digər müvafiq tərəflərlə müqavilələrin imzalanması, layihənin performansı ilə bağlı monitorinq və hesabatvermənin inzibatçılığından məsul olmaq;

(ix) problemin həlli və müştəri və maraqlı tərəflərlə əlaqələndirmə sahəsində AİB-in layihə üzrə mütəxəssisinə yardımın göstərilməsi;

(x) proqramın icrası ilə bağlı strateji nəzarətin həyata keçirilməsi və heyətə ümumi texniki dəstəyin göstərilməsi;

(xi) Azərbaycana ən azı üç (3) səfərin təşkili;

(xii) layihə üzrə hesabatvermədən məsul olmaq və layihədən çıxarılmış dərslərdən daimi faydalanmaq;

(xiii) qabaqcıl təcrübələrin sənədləşdirilməsinin və layihə üzrə mütəxəssis və AİB-in İdarəçilik üzrə Tematik Qrupu ilə əlaqələndirmə çərçivəsində geniş kütləyə paylanılmasının təmin olunması; və

(xiv) fəaliyyətin qənaətbəxş icrası üçün tələb oluna biləcək digər istənilən fəaliyyətlərin həyata keçirilməsi.

13. Mütəxəssis/Qrup Rəhbəri aşağıdakı meyarlara sahib olmalıdır:

(i) İqtisadiyyat, Biznesin İdarəsi, Mühəndislik, Siyasət Elmi və ya müvafiq sahədə magistr dərəcəsi;

(ii) mədən sənayesində ən azı səkkiz (8) il müvafiq beynəlxalq təcrübə;

(iii) mədən sənayesində zəruri diqqət və şəffaflıqla bağlı dərin anlayışlar və çoxsahəli heyətlərin idarə olunması sahəsində uzun müddətli təcrübə və

(iv) yaxşı komanda quruculuğu və mədəniyyətlərarası münasibətlər.

14. Azərbaycan və ya rus dili biliklərinə üstünlük verilir.

**2. Hüquqşünas[8] (beynəlxalq; 6 nəfər-ay; qeyri-daimi)**

15. Beynəlxalq hüquqşünas müştəri və digər maraqlı tərəfləri BSYX-nin icrası məqsədilə tələb olunan hüquqi dəyişikliklərlə bağlı fəaliyyətlərdə dəstəkləyəcək. O, aşağıdakıları həyata keçirəcək:

(i) beynəlxalq təcrübə və Azərbaycan Respublikasının hüquq sistemindən qaynaqlanaraq müvafiq qanunvericiliyə tələb olunan əsas dəyişikliklərin müəyyən olunması;

(ii) dəyişikliklərin layihəsinin hazırlanması;

(iii) müvafiq dövlət qurumları və Parlamentlə müştərinin məsləhətləşmə prosesinin dəstəklənməsi, yəni qanunvericilik layihəsi ilə bağlı qəbul olunmuş rəylərin nəzərə alınması;

(iv) benefisiar sahibliyin tərifinin hazırlanması və toplamaq və açıqlamaq üçün təfərrüatların adekvat səviyyəsinin təklif olunması;

(v) Dövlət Benefisiar Sahiblik Qeydiyyatının hüquqi formalaşdırılmasının dəstəklənməsi;

(vi) məlumatların toplanılmasından öncə benefisiar sahiblik bəyannamələrində məlumatların təmin olunması məqsədilə şirkətlər üçün müvafiq mexanizmin müəyyən olunması;

(vii) dövlət qeydiyyatına təqdim olunan məlumatların yoxlanılması məqsədilə təklif olunan qanun dəyişikliklərində nəzərə alınmalı olan sənədlərin siyahısının nəzərdən keçirilməsi;

(viii) AH, məsləhətçi heyətin digər üzvləri və digər müvafiq maraqlı tərəflərlə bütün addımlar üzrə sıx əlaqələndirilmənin qurulması;

[8] BSYX-ın icrası üzrə hüquqi bazanın yaradılması üçün məsləhətçi BSYX-ın icrası üzrə hüquqi bazanın yaradılması məqsədilə iki alternativ seçimi nəzərdən keçirməlidir: (a) bütün müvafiq qanunvericilik və/və ya qaydalara dəyişikliklər, yaxud da (b) hər hansı mövcud qanunvericilik/qaydanın mane olması nəticəsində BSYX-ın icrası haqqında yeni qanunun qəbul olunması.

(ix) benefisiar sahiblik və qabaqcıl qlobal hüquqi benefisiar sahiblik praktikaları ilə bağlı hüquqi standartlar üzrə dəyişikliklərin monitorinqi və sənədləşdirilməsinin aparılması;

(x) hüquqi məsələlər üzrə bilik məhsulları və layihə qeydlərinin hüquqi bölmələrinə rəhbərliyin həyata keçirilməsi;

(xi) Azərbaycana ən azı 3 səfərin təşkili; və

(xii) fəaliyyətin qənaətbəxş icrası üçün tələb oluna biləcək digər istənilən fəaliyyətlərin həyata keçirilməsi.

16. Beynəlxalq hüquqşünas aşağıdakı meyarlara cavab verməlidir:

(i) Hüquq sahəsində dərəcə və hüquqi sənədlərin hazırlanması üzrə uzun müddətli təcrübə;

(ii) müvafiq sahədə ən azı səkkiz (8) il beynəlxalq təcrübə;

(iii) HSŞT və ya bənzər çoxtərəfli qurum, benefisiar sahiblik məsələləri, tənzimləyici təsirlərin qiymətləndirilməsi ilə bağlı müvafiq təcrübə; və

(iv) yaxşı komanda quruculuğu və mədəniyyətlərarası münasibətlər.

17. Azərbaycan və ya rus dili bilikləri və mədən sənayesində müvafiq təcrübəyə üstünlük verilir.

**3. Hüquqşünas və / və ya Mədən Sənayesinin Şəffaflığı üzrə Mütəxəssis[9]**
**(milli, 14 nəfər-ay; qeyri-daimi)**

18. Milli hüquqşünas müştəri və digər maraqlı tərəfləri BSYX-ın icrası, o cümlədən hüquqi sənədlərin hazırlanması ilə bağlı bütün fəaliyyətlərdə dəstəkləyəcək. O, aşağıdakıları həyata keçirəcək:

(i) müştəri ilə birgə maraqlı tərəflərlə məsləhətləşmə prosesinin əlaqələndirilməsi;

(ii) məsləhətləşmə tədbirlərinin hazırlanması, icrası, inzibatçılığı və sənədləşdirilməsinin dəstəklənməsi;

(iii) AİB-in inzibati tələblərinin yerinə yetirilməsinin təmin olunması məqsədilə layihə üzrə mütəxəssis, maliyyə və əməliyyatlar üzrə mütəxəssislərlə sıx əlaqələndirmə;

(iv) hüquqi sənədlərin, mövqe sənədlərinin və bilik məhsullarının hazırlanmasının ehtiyac olduğu təqdirdə dəstəklənməsi; və

(v) fəaliyyətin qənaətbəxş icrası üçün tələb oluna biləcək digər istənilən fəaliyyətlərin həyata keçirilməsi.

19. Milli hüquqşünas aşağıdakı meyarlara cavab verəcək:

(i) Azərbaycanlı olacaq;

(ii) Hüquq və ya digər müvafiq sahədə dərəcəsi olacaq və hüquqi sənədlərin hazırlanması və / və ya Azərbaycanda HSŞT proseslərinin dəstəklənməsi ilə bağlı uzun müddətli təcrübəsi olacaq;

(iii) ən azı beş (5) il müvafiq təcrübəsi olacaq; və

---

[9] BSYX-ın icrası üzrə hüquqi bazanın yaradılması üçün məsləhətçi BSYX-ın icrası üzrə hüquqi bazanın yaradılması məqsədilə iki alternativ seçimi nəzərdən keçirməlidir: (a) bütün müvafiq qanunvericilik və/və ya qaydalara dəyişikliklər, yaxud da (b) hər hansı mövcud qanunvericilik/qaydanın mane olması nəticəsində BSYX-ın icrası haqqında yeni qanunun qəbul olunması.

(iv) yaxşı komanda quruculuğu və mədəniyyətlərarası münasibətləri olacaq.

20. Mədən sənayesi və HSŞT-ni icra edən ölkələrin prosesləri ilə bağlı müvafiq təcrübəyə üstünlük verilir.

**4. Maliyyə və Əməliyyatlar üzrə Mütəxəssis (milli; 6 nəfər-ay; qeyri-daimi)**

21. Maliyyə və Əməliyyatlar üzrə Mütəxəssis layihə üzrə maliyyə və mühasibatlıq funskiyalarını təmin edəcək. O, aşağıları həyata keçirəcək:

(i) AİB-in maliyyə idarəetməsi siyasətinin müvafiq olaraq həyata keçirilməsi və bütün əməliyyatların müvafiq olaraq həyata keçirilməsi, qeydə alınması və vaxtında hesabat verilməsinin təmin olunması;

(ii) Tədbirlər üçün xərc smetasının hazırlanması və layihə üzrə mütəxəssisdən təsdiqin alınması;

(iii) tədbirlərin həyata keçirilməsi və sənədləşdirilməsinin dəstəklənməsi; və

(iv) fəaliyyətin qənaətbəxş icrası üçün tələb oluna biləcək digər istənilən fəaliyyətlərin həyata keçirilməsi.

22. Maliyyə və Əməliyyatlar üzrə Mütəxəssis aşağıdakı meyarlara cavab verəcək:

(i) Azərbaycanlı olacaq;
(ii) maliyyə idarəetməsi və hesabatvermə, mühasibat əməliyyatları, büdcənin hazırlanması ilə bağlı ən azı on (10) il müvafiq təcrübə, nümayiş olunan biliklər və bacarıqlara sahib olacaq;
(iii) yaxşı komanda və mədəniyyətlərarası münasibətləri olacaq.

23. İnkişaf tərəfdaşlarının layihələri və mədən sənayesində müvafiq təcrübəyə üstünlük verilir.

**D. İcra Cədvəli və Hesabat Tələbləri**

24. BSYX-ın icrası ilə bağlı TY fəaliyyətlərinin 7 iyun 2018-ci il tarixində başlaması və 30 oktyabr 2018-ci il tarixində başa çatması (16 ay və 2 həftə) gözlənilir. TY-nin təklif olunan icra qrafiki Cədvəl 1-də təqdim olunur.

## 1 saylı Cədvəl: Texniki Yardımın İcrası Qrafiki və Hesabat Tələbləri

| Mərhələ | Nəticə (lər) | Gözlənilən başa çatma tarixi | Birdəfəlik Ödəmə |
|---|---|---|---|
| 0. Səfərbərlik | Bütün TY məsləhətçiləri səfərbər olub | 2 iyun 2018 (hazırda) | **5%** |
| 1. Məsləhətçi heyətinin səfərbərliyi | **1 Saylı Hesabat:** İlkin Hesabat | 13 iyul 2018 (6 iyul 2019 idi) | **10%** |
| 2. Benefisiar sahiblik məlumatlarının açıqlanmasında qabaqcıl beynəlxalq təcrübənin araşdırılması (yuxarıda 6 saylı paraqrafda göstərilən (i) fəaliyyəti) | **2 Saylı Hesabat:** Qabaqcıl təcrübə hesabatı, o cümlədən benefisiar sahiblik təriflərinin üstünlüyü barədə | 27 iyul 2018 | |
| 3. Konstitusiya və digər müvafiq qanunvericiliyin | **3 Saylı Hesabat:**<br>• Təklif olunan benefisiar sahiblik tərifi, o cümlədən faiz minimum; birbaşa və dolaylı | 30 sentyabr 2018 (31 oktyabr 2018 idi) | **15%** |

## YEKUN

| Mərhələ | Nəticə (lər) | Gözlənilən başa çatma tarixi | Birdəfəlik Ödəmə |
|---|---|---|---|
| araşdırma və baxışı ilə benefisiar sahiblik tərifinin hazırlanması və maraqlı tərəflərlə məsləhətləşmə (yuxarıda 6 saylı paraqrafda göstərilən (ii), (iii) və (iv) fəaliyyətləri) | sahiblik; hasilat sənayesi şirkətləri, o cümlədən təriflə əhatə olunmalı olan təchizatçılar, podratçılar və xidmət təminatçıları; və nəticə etibarilə belə hüquqi şəxslərin benefisiar sahibi ola bilən şəxslərə istinadlar;<br>• Qanunvericiliyin baxışı məqsədilə toplanılmalı və açıqlanmalı olan təfərrüatların təklif olunan adekvat həddi;<br>• Təklif olunan benefisiar sahiblik tərifinə uyğun olaraq şirkət formaları və onların məsul şəxsləri, o cümlədən benefisiar sahiblik məumatlarının təqdim edilməsi tələb olunan siyasi xadimlər barədə hesabat. | | |
| 4. Benefisiar sahiblik tərifinin layihəsi barədə məsləhətləşmə | **4 Saylı Hesabat:** Gündəm, iştirakçılar, rəy cədvəli, o cümlədən rəylərlə necə məşğul olunduğu barədə hesabat. | 30 noyabr 2018 | |
| 5. Benefisiar Sahiblik üzrə Dövlət Qeydiyyatı Reyestri yaradılması layihəsi (yuxarıda 6 saylı paraqrafda göstərilən (vi), (vii), (viii), (ix) və (x) fəaliyyətləri) | **5 Saylı Hesabat:**<br>• Təklif olunan benefisiar sahiblik bəyannaməsi forması layihəsi;<br>• Benefisiar Sahiblik üzrə Dövlət Qeydiyyatı layihəsi ilə əlaqədar digər müvafiq hökumət agentlikləri ilə razılaşmaların icmalı; və<br>• Şirkətlər və VCT-lər üçün məlumat təhlükəsiziiyi mexanizmi layihəsi<br>barədə hesabat. | 31 yanvar 2019 | **15%** |
| 6. Benefisiar sahiblik məlumatlarının açıqlanması qanunvericiliyi layihəsi (yuxarıda 6 saylı paraqrafda göstərilən (xi) və (xii) fəaliyyətləri) | **6 Saylı Hesabat:**<br>• Benefisiar sahiblik məlumatlarının açıqlanması yol xəritəsinin icrasını təmin etmək üçün müvafiq qanunvericiliyə dəyişikliklər layihəsi;<br>• İnzibati və cinayət məsuliyyəti və cərimələr təqdim edən qanunvericilik layihəsi<br>barədə hesabat. | 15 aprel 2019<br>(31 may 2019 idi) | **30%** |
| 7. Dəyişikliklər barədə məsləhətləşmə prosesi (yuxarıda 6 saylı paraqrafda göstərilən (xiii) fəaliyyəti) | **7 Saylı Hesabat:** Gündəm, tədbir və görüşlərin iştirakçıları, məsləhətləşmə prosesinin nəticələri, o cümlədən müxtəlif maraqlı tərəflərdən verilən daha əvvəlki layihələr və onların necə həll olunduğu haqqında rəyləri göstərən rəy cədvəli barədə təfərrüatlı hesabat | 30 iyun 2019 | |
| 8. Benefisiar sahiblik barədə maarifləndirici tədbirlər (yuxarıda 6 saylı paraqrafda göstərilən (xiv) fəaliyyəti) | **8 Saylı Hesabat:** Gündəm, seminar və görüşlərin iştirakçıları, görüşlərin nəticələri, o cümlədən qəbul olunan məlumatlar və onların necə həll olunduğunu göstərən rəy cədvəli barədə təfərrüatlı hesabat | 31 avqust 2019 | **20%** |
| 9. Texniki Yardımın (TY) başa çatması | **9 Saylı Hesabat:** Yekun Hesabat | 30 oktyabr 2019 | **5%** |
| | | | **100%** |

# 2 saylı Əlavə: Məsləhətçi heyət

## A2.1 Tim Law, Engaged Consulting Ltd

*Heyət Rəhbəri və Beynəlxalq Hasilat Sənayesi Şəffaflıq Mütəxəssisi*



Tim böyük bizneslər və qərar qəbul edən orqanlara bütün vergi aspektləri və əlaqəli şəffaflıq və idarəetmə məsələlərində peşəkar məsləhət verir. O ixtisaslı İmtiyazlı Mühasib və vergi mütəxəssisidir və 14 ildir ki, vergi şəffaflığında mütəxəssisdir. O “Anglo American” üçün və qlobal olaraq bütün vergi askpektləri və benefisiar sahibliyin açıqlanması müzakirələrini və hesabatlarını idarə edib. Məsləhətçi kimi o, hökumət və beynəlxalq səviyyədə şəffaflıq qaydaları üzrə müzakirələrin mütəmadi iştirakçısıdır.

## A2.2 Michael Barron, Michael Barron Consulting Ltd

*Heyət Rəhbəri və Beynəlxalq Hasilat Sənayesi Şəffaflıq Mütəxəssisi*



Michael publik siyasət və hökumət münasibətlərinin təşkili sahəsində ixtisaslaşır və hasilat sənayesi şəffaflığında xüsusi peşəkarlığı var. O “BG Group” (British Gas) və HSŞT arasında münasibətləri idarə edib, BG-nin fəaliyyəti olan ölkələrdə HSŞT-nin tətbiqi barədə məsləhət verib və Birləşmiş Krallıq HSŞT ÇTQ-də xidmət edib. O Efiopiya və Qanada benefisiar sahibliyin açıqlanması barədə məsləhət verib.

## A2.3 Julian Hicks

*Beynəlxalq Hüquq Mütəxəssisi*



Julian 25 ildən artıq müddət ərzində beynəlxalq hasilat sənayesi hüquqşünası işləmiş Birləşmiş Krallıq ixtisaslı vəkildir və həmçinin böyük BK listinqə daxil olmuş şirkətlərə idarəetmə, uyğunluq və etik məsələlərdə məsləhətlər verir. Julian 12 ildən artıq müddət "Royal Dutch Shell"-in Baş Məsləhətçi Köməkçisi kimi, şirkətin Rusiya, MDB və Mərkəzi Asiya və həmçinin orta Şərq, Şimali Afrika və Cənub-Şərqi Asiya əməliyyatlarından məsul olaraq fəaliyyət göstərib və bir çox etik məsələlərdə, o cümlədən bir neçə yurisdiksiyada gəlir şəffaflığı və benefisiar sahiblik məsələlərində məsləhətlər verib.

## A2.4 Yunis Salayev, BDO Azerbaijan

*Azərbaycanlı Maliyyə Mütəxəssisi*



Yunis İmtiyazlı Sertifikatlı Üzv Mühasib (FCCA, UK), Sertifikatlı Fırıldaqçılıq Mütəxəssisi (CFE, US), Sertifikatlı Daxili Auditor (CIA, US), Sertifikatlı İnformasiya Sistemləri Auditoru (CISA, US), Qiymətli Kağızlar və İnvestisiyalar İmtiyazlı İnstitutunun Üzvü (MCSI, UK) və Azərbaycanda lisenziyalı qanuni auditordur. O 16 ildən artıqdır bu peşənin sahibidir.

Yunis Azərbaycan Auditorlar Palatası yanında Peşəkar Etika Komitəsinin sədri, təhsil xeyriyyəsi olan Təhsildə İnnovasiyalar Mərkəzinin Direktorlar Şurasında qeyri-icraçı üzv və Xəzər Universiteti İqtisadiyyat və Menecment Fakültəsinin ziyarətçi mühazirəçisi olmuşdur.

## A2.5 Sabit Abdullayev, BDO Azerbaijan

*Azərbaycanlı Hüquq Məsləhətçisi*



Sabit Azərbaycanda fəaliyyət göstərən hüquqşünasdır. O Azərbaycan Vəkillər Kollegiyasının üzvüdür və yerli məhkəmələrdə müştəriləri təmsil etməyə səlahiyyətlidir. Sabitin qanunvericilik layihələrinin hazırlanmasında geniş təcrübəsi var və əvvəllər Azərbaycan qanunvericiliyinə islahatlar tətbiq olunaraq beynəlxalq və AB tələblərinə uyğunlaşdırılması məqsədilə müxtəlif texniki dəstək layihələrində iştirak etmişdir.

# 3 saylı Əlavə: 28 iyun 2018-ci il tarixli Azərbaycanda Hasilat Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına Dair Yol Xəritəsinin Tətbiqinə Dəstək Üçün Sual-Cavab Cədvəli Layihəsi

## MARAQLI TƏRƏFLƏRİN SUALLARINA CAVABLARDA İSTİFADƏ ÜÇÜN

Tələb olduqca vaxtaşırı yenilənməlidir.

| Sual | Cavab |
|---|---|
| 1. Benefisiar sahiblik nədir? | Benefisiar sahiblik nəticə etibarilə şirkətin sahibi və şirkətdən və ya kommersiya fəaliyyətindən maliyyə şəklində fayda əldə edən şəxslərə işarə edir. Benefisiar sahibliyin açıqlanmasının vahid qlobal standartı yoxdur. Mümkün olan müxtəlif təfərrüatlı təriflər var və bu layihə Azərbaycan üçün münasib tərifin işlənib hazırlanmasını ehtiva edir. |
| 2. Benefisiar sahibliyin açıqlanmasının Azərbaycanın hasilat sənayesilə əlaqəli faydaları nədir? | Benefisiar sahibliyin açıqlanması ictimaiyyətə şirkətin sahibini və ya kommersiya fəaliyyətindən faydalanan şəxsi müəyyən etməyə imkan verir. Bu Azərbaycana investisiya qoyan və ya burada hasilat sənayesi sahəsində müqavilə imzalayan şirkətlərdə inam və etibarın çoxalmasına xidmət etməklə biznes fəaliyyətini asanlaşdırır. Əlavə olaraq, bu hökumətə nəticə etibarilə kimin nə qədər gəlir əldə etdiyini izləməyə, vergi, rüsum və digər ödənişlərin toplanmasından əmin olmağa imkan verir. Həmçinin bu Azərbaycanın hasilat sənayesində şəffaflığa və yaxşı idarə olunmasına töhfə verəcək. |
| 3. Bu layihənin əhatə dairəsi nədir? | Bu layihə yalnız Azərbaycandakı hasilat sənayesini nəzərə alır (yəni neft, qaz və mineral resursların kəşfi, inkişafı və hasilatı ilə əlaqəli kommersiya fəaliyyəti). |
| 4. Bu layihənin vaxt çərçivəsi nədir? | Bu layihə 1 iyun 2018-ci il tarixində başlayıb və 31 oktyabr 2019-cu il tarixinədək başa çatması gözlənilir. |
| 5. Bu layihə nə nəticə verəcək? | Bu layihə Azərbaycanın hasilat sənayesində benefisiar sahibliyin razılaşdırılmış tərifini, məlumatın toplanması, yoxlanılması və yayılması üçün tövsiyə olunan mexanizmləri (o cümlədən, qeydiyyata alınmalı olan şirkətlərin sayından və tələb olunacaq məlumatlarını yeniləmə periodundan asılı olaraq mümkün elektron həlli yolları) və benefisiar sahibliyin açıqlanmasının asanlaşdırılması üçün qanunvericilik layihəsini təqdim edəcək. |
| 6. Bu layihə üçün niyə beynəlxalq məsləhətçilərdən istifadə edirsiniz? | Azərbaycan Vəkillər Kollegiyasının üzvü və beynəlxalq mühasibat şirkətinin yerli törəmə müəssisəsində (BDO Azərbaycan MMC) bir partnyor daxil olmaqla yerli məsləhətçilər fərqli yurisdiksiyalarda, bənzər tapşırıqlarda müvafiq təcrübəsi olan beynəlxalq məsləhətçilərlə birbaşa əlaqədə bu layihəni həyata keçirirlər. Bu beynəlxalq məsləhətçilər BDO-ya kömək edəcək və Azərbaycana onların bu sahədə qabaqcıl beynəlxalq praktika barədə biliklərindən faydalanmasına imkan yaradacaqlar. |
| 7. Hansı şirkətlər benefisiar sahiblik məlumatı hesabatı verməli olacaqlar? | Hazırda hesabat vermə öhdəlikləri olan şirkətlər barədə qərar verilmiş olmasa da, gözlənilir ki, aşağıdakı fəaliyyətlərdən bir və ya bir neçəsi ilə məşğul olan şirkətləri əhatə edəcək:<br>• kəşfiyyat lisenziyası üçün müraciət;<br>• kəşfiyyat fəaliyyəti;<br>• neft, qaz və ya mineral resursların işlənməsi;<br>• neft, qaz və ya mineral hasilatı;<br>• neft, qaz və ya mineral ixracı;<br>• neft, qaz və mineral hasilatı sahəsində dövlətin paylarının alınması; və |

| | |
|---|---|
| | • yuxarıdakı və ya əlaqəli kommersiya fəaliyyətlərindən hər hansı birinin həyata keçirilməsi məqsədilə bir-biri ilə ortaq razılaşma |
| 8. Kimin məlumata çıxışı olacaq? | Şəffaflığın inkişaf etdirmək və ictimai açıqlamanı rəhbər prinsip kimi tətbiq etməklə benefisiar sahiblik məlumatına çıxışın həddi layihə ərzində müvafiq maraqlı tərəflər arasında razılaşdırılacaq və icra edilən və qəbul ediləcək qanunvericilikdə öz əksini tapacaq mexanizmlərin bir hissəsi olacaq. |
| 9. Məlumat necə əldə ediləcək? | Bu da layihənin tətbiqi zamanı razılaşdırılacaq mexanizmlərin bir hissəsi olacaq. Ümid olunur ki, onlayn formada mövcud olacaq. |
| 10. Benefisiar məlumatın açıqlanmasının kommersiya sirrinə hansı təsiri olacaq? | Açıqlama, sırf kommersiya sirlərini və ya əmlak məlumatlarını əhatə etməyəcək. Benefisiar Sahiblərin və ya onların ailələrinin təhlükəsizliyinə xələl gətirə biləcək məlumatın mühafizəsi üçün – Onların yaşayış ünvanları kimi məlumatların qorunması üçün addımlar da atılacaq. |
| 11. Layihə hansı fəaliyyəti əhatə edəcək? | Layihəyə beynəlxalq təcrübənin kameral araşdırması, Azərbaycan qanunvericiliyinin qiymətləndirilməsi, maraqlı tərəflərlə əlaqələr və iki məsləhətləşmə sessiyası daxildir. |
| 12. Azərbaycan Hökumətinin himayəçi agentlikləri hansılardır? | Tətbiq edən agentlik ARDNF və icraçı agentlik Maliyyə Nazirliyidir. |
| 13. AİB niyə bu layihəni maliyyələşdirir? | Azərbaycan Hökuməti və AİB arasındakı razılaşmaya müvafiq olaraq AİB-nin inkişaf prioritetlərində uzun müddətli töhfəsi var və inkişaf partnyorları ilə yaxın məsləhət və işbirliyi içərisindədir. İnkişaf effektini artırmaq üçün AİB şəffaflığın artırılması və yaxşı idarəetmə təcrübəsinin yaradılmasında həvəslidir. Bu Azərbaycan üçün AİB tərəfindən təmin olunan texniki dəstəyin bir hissəsidir.<br><br>Suallar üçün zəhmət olmasa xanım Yagut İltifat Ertenliche-ə (Layihə İşçisi, Azərbaycan Rezident Missiyası, yertenliche@adb.org və ya +9885588106) və ya cənab Roland Pladet-ə (Baş Maliyyə Mütəxəssisi, Energetika Diviziyası, Mərkəzi və Qərbi Asiya Departamenti, Manila, Filippin, rpladet@adb.org və ya +6326326178) müraciət edin. |
| 14. Maraqlanan tərəflər məsləhət prosesində necə iştirak edə bilərlər? | Maraqlı tərəflər hər hansı spesifik sorğuları ilə bağlı məsləhətçi ilə<br>E-mail: beneficial.ownership@bdo.az<br>Tel: +994 12 4886610<br>vasitəsilə birbaşa və / və ya və ya HSŞK vasitəsilə əlaqə yarada bilərlər. Həmçinin məsləhətlərə cavab vermək və / və ya layihənin tətbiqi zamanı təşkil olunacaq plenar məsləhətləşmə sessiyalarında iştirak etmək fürsətləri olacaq. |
| 15. Layihənin tətbiqi boyunca hər hansı təqdimat və / və ya məsləhətləşmələr planlanıbmı? | Bəli, təqdimat / məsləhətləşmənin təxmini cədvəli HSŞK saytından əldə edilə bilər. |
| 16. Böyük həcmli hasilat sahələri olan digər ölkələrdə benefisiar sahibliyin açıqlanması reyestrinin hər hansı yaxşı nümunəsi varmı? | Bəli, benefisiar sahiblik reyestrləri bu ölkələrdə yaradılıb:<br>BK: https://www.gov.uk/get-information-about-a-company<br>Ukrayna: https://usr.minjust.gov.ua/ua/freesearch<br>Zambiya: https://eiti.org/document/2015-zambia-eiti-report |

## 4 saylı Əlavə: Aylıq İrəliləmə Hesabatı Nümunəsi

### TA-9106 AZE: AZE: BENEFİSİAR SAHİBLİYİN AÇIQLANMASINA DAİR YOL XƏRİTƏSİNİN TƏTBİQİNƏ DƏSTƏK (49451-001)

### Aylıq İrəliləmə Hesabatı

| **Müddət:** | | |
|---|---|---|
| **Nəticə** | **İrəliləmə (%)** | **Qeydlər** |
| **I Hesabat** | | |
| **II Hesabat** | | |
| **III Hesabat** | | |
| **IV Hesabat** | | |
| **V Hesabat** | | |
| **VI Hesabat** | | |
| **VII Hesabat** | | |
| **VIII Hesabat** | | |
| **IX Hesabat** | | |
| **Digər rəylər** | | |
| | | |